

# NUH TÜRBƏSİ

**Azərbaycan məmləkətinin tərkibində yerləşən Naxçıvan Muxtar Respublikası dağlıq ərazidən ibarətdir. Ölkə Kiçik Qafqaz dağlarının cənub-qərbində yerləşmişdir. Ərazinin relyefi hər tərəfdən dağlarla əhatə olunaraq "çuxura" bənzər formalıdır. Buranın ən alçaq sahəsi dünya okeanı səviyyəsindən 600 metr və ən hündür zirvəsi isə 3917 metr yüksəkdir.**

1990-cı il tarixdə ermənilər tərəfindən tutulmuş Sədərək rayonunun Kərki daxil olmaqla, ərazinin ümumi sahəsi 5,5 min kvadrat kilometrdir. Azərbaycan Respublikasının 1995-ci il 12 noyabr tarixli Əsas Qanununa əsasən Azərbaycanın tərkibində olan Naxçıvan Muxtar Respublikası tabeliyində yeddi inzibati rayon əraziləri (Sədərək, Şərur, Kəngərli, Babək, Şahbuz, Culfa və Ordubad) vardır.

Naxçıvan əhalisi dini və əxlaqi ənənələrə maraq göstərməklə, kütləvi xalq tamaşalarını, milli folkloru bu günədək qoruyub saxlamışlar.

Naxçıvan Qafqazda qədim yaşayış məskənlərindən biri olaraq, orta əsrlər dövründəki tarixi "İpək yolu"nun üstündə olmuşdur. XX əsrin əvvəllərində Avropadan Asiyaya gedən (London - Paris – Tiflis – Bombey) transkontinental poçt-teleqraf rabitə xəttinin bir məntəqəsi Naxçıvan şəhərində olmuşdur.

Naxçıvan şəhərində keçmişdə olduğu kimi indi də məhəllə-ərazi adları saxlanılır. Onlar Cığatay, Sarbanlar, Comayıl, Çuxur, Qala, Xoylu, Xoşulu, Əlixan, Qaraağac, Zaviyə, Şahab, Qoçüstü, Çimən, Qurdlar və sairələridir.

XX əsrin əvvəllərində Naxçıvan şəhərində 4 karvansara, 12 buzxana, 1 zorxana, 5 məktəb (mədrəsə), 2 xəstəxana (azarxana), 5 məscid, 17 su dəyirmanı, 5 hamam olmuşdur. Həmin dövrlərdə şəhər əhalisini içməli və təsərrüfat suyu ilə təchiz edən bir çox kəhrizlər (çeşmələr) də qazılmışdır. Onlara vəsait qoyan xeyriyyəçilərin adları ilə adlandırılmış, Cəfərquluxan, Qız xanım, Mirzə Bədəl, Kor Əli, Qələndər, Kərbəlayı Musa, Miriş ağa, Məşədi Tahir, Ağam Əli (xan), Şahbaz ağa, Cığatay bəy və başqa çeşmələr...

Son illər Naxçıvan öz simasını dəyişərək abad olmuş və gülzarlığa çevrilmişdir. Bütün bu işlərə səbəb, hazırki ölkə rəhbərlərinin, xüsusən, Naxçıvan MR Ali Məclisinin sədri cənab Vasif Talıbovun diqqəti və qayğısı olmuşdur.

Naxçıvan şəhərinin cənub qurtaracağında "Naxçıvan nekropolu" deyilən ərazidə eramızdan əvvəl II - I minilliklərdə mədəni insan məskənləri olmuşdur. Şəhərin şərq hissəsi olan "Qoçüstü" sahəsində qazıntılar zamanı burada qədim insanların yaşadıqları aşkar olmuş və həmin ərazi e.ə. XV – I əsrlərdə şəhər yeri olmuşdur.

Maraqlıdır ki, indiki şəhər qəbirstanlığının şimal hissəsində (Naxçıvan Xanım Qızlar Litseyi ərazisində) yer qazılarkən orada müxtəlif qədim əşyalar tapılmış və üzərində kufi xətti ilə yazılmış "Nəxçi" sözü olan sikkələr tapılmışdır. Naxçıvan şəhərinin toponiminə gəldikdə isə, "Nəxçi" – Nuh, "van" isə yurd (məkan) deməkdir. Şübhəsiz ki, Nuh yurdu ilə adlanan Naxçıvan diyarındakı qədim yaşayış yerində ziyarətgahlar (məbədlər) olmuş, bəziləri hətta dövrümüzədək qalmaqdadır.

Naxçıvan şəhərinin ən qədim ziyarətgahı sayılan "Nuh türbəsi"dir. Xalq arasında bura "İmamzadə"də deyilir. Həmin türbə soğana bənzər formada olub, günbəz hissədən və iki yaruslu əsas binadan ibarətdir. Tikilinin hörgü-inşaat materialları digər qədim hörgülərdən çox-çox fərqlidir.

"Nuh türbəsi"nin dəqiq tikilmə tarixi öyrənilməmişdir, lakin onun yanında olan İmamzadə binası isə XVIII əsrin 20-ci illərində inşa olunmuşdur. Buna əsas verən, 1920-ci illərdə burada olmuş epiqraf alim İ.Əzimbəyovun yazdığı və haliyədə yerində olmayan ərəb dilində yazılmış daş kitabənin mətnidir...

Kitabənin tərcüməsi belə olmuşdur: "1722 – 1732-ci illərdə bu imamzadə, ərəb və əcəmin ixtiyar sahibi, səxavətli xaqan, möhtərəm əmir, ən böyük sultan, şah oğlu Şah Əbu Müzəffər Təhmasib Bahadır xanın hökmdarlığı dövründə, günahlar bağışlamağa layiq, mərhum Hacı Polad bəyin oğlu sahibkar, zəmanənin xeyirxahı olan Rufan bəyin əmri ilə tikilmişdir".

1975-77-ci illərdə görkəmli alim, mərhum akademik Ə.V.Salamzadə və memarlıq doktoru K.M.Məmmədzadə burada maraqlı tədqiqat işləri aparmışlar. Lakin onlar Nuh türbəsinin tikilmə tarixini dəqiqləşdirə bilməsələr də, ingilis, rus və milli dilimizdə yazdıqları "Arazboyu abidələr" kitabını nəşr etdirmişlər.

XIX əsrin ortalarında Naxçıvanda olmuş rus şərqşünası N.V.Xanıkov İmamzadə tikilisinin Səfəvilər dövrünün şahı II Təhmasibin zamanında inşa olunmasını güman etmişdir. O, burada olarkən yuxarıda adı çəkilən baş kitabəni oxuyarkən əsaslandırmışdır.

Rus alimi V.M.Sısoyevin yazdığına görə isə, İmamzadə binasının içərisində Abbasqulu xanın 1818-ci ildə vəfat etmiş oğlu Mustafaqulu xan Naxçıvanskinin də məzarı olmuşdur. Təəssüf ki, əvvəlki illərdə (sovet dövründə) bu-

rada bərpa işləri aparılarkən həmin məzar sökülmüş və bərpaçı ustalar "məzarüstü kitabəni" götürərək yaxındakı şəhər qəbirstanlığından gətirilən digər məzarüstü daşla əvəz etmişlər. Yazı hərfləri pozulan həmin daşın üzərindəki sözlərin ərəbcədən tərcüməsi belədir: "Onun sahibi mərhum Kulkuta şahın (?) qızı mərhumə, günahları bağışlanmış xoşbəxt şəhid, Yüksək Allahın rəhmətinə getmiş Ba(nu) Şahbikə, fani dünyadan əbədi dünyaya köçdü. Doqquz yüz altıncı il." (Miladi tarixi ilə 1500-cü il).

Naxçıvan şəhəri seysmik zonada yerləşdiyindən yeraltı təkanlara məruz qalan tikililər dəfələrlə çatlamış və uçaraq xarabəliyə çevrilmişdir. Lakin Naxcıvandakı qədim tikili sayılan "Nuh türbəsi" bütün bəlalara dözərək, dövrümüzədək salamat gəlib çatmışdır.

Nuh peyğəmbərin sükansız və yelkənsiz üzərək Naxçıvandakı (Qafqazdakı) Qapıcudi dağında dayanmasını müqəddəs «Quran» kitabı da məlumat vermişdir.

Hacı Şeyx Həsən Mövlazadənin yazdığı «Tarixi Müqəddəs» kitabında Nuhun gəmisinin Ağrı dağında dayanması və vəsiyyətinə görə peyğəmbərin oğlanları tərəfindən Kufə dağında dəfn olunması bildirilmişdir.

Həmin ehtimal səhv nəzəriyyədir, çünki Ağrı (Ər-Arvad) dağının hündürlüyü 5165 metr yüksəklikdə olduğundan orada bütün canlılar tezliklə məhv olmalı idilər...

Digər mütəxəssislərin fikrincə isə Nuhun gəmisinin məhz Kiçik Qafqaz (3904 m) ərazisində dayanması ehtimalı vardır. Çünki peyğəmbərin adı ilə bağlı toponimlər Naxçıvanda hələ də qalmaqdadır. Məsələn, Nuhəcr (kəndi), Nuhçuvan (vilayəti), Nəxçi (pul vahidi), Nəşəvi (şəhər adı), Nuh bulağı (mineral sulu çeşmə), Nuh dabanı (dağ adı) və sairələrini göstərmək olar.

Azərbaycanın realist rəssamı B.Kəngərli, tablolarından birinin adını «Nuhun qəbri» qoymaqla onu Naxçıvanda yaratmışdır.

60-cı illərdə şəhər ərazisində torpaq qazılarkən qədim daş qəbir (tabut) aşkar olunmuşdur. Daş tabutun içərisində əlvan (ipək) geyimli bir qadın ölüsü olmuşdur. Həmin tarixi tapıntı mütəxəssislər tərəfindən Sankt-Peterburqdakı «Ermitaj muzeyi»nə aparılmış və bu barədə yerli qəzetlərdə «Yatmış gözəlin sirri» sərlövhəli elmi məqalədə bildirilmişdir. Mütəxəssislər həmin qadının Nuhun arvadı olduğunu ehtimal etmişlər.

Hazırda Naxçıvan şəhərindəki «Nuh türbəsi» tarixi mədəniyyət tikilisi son illərdə bir daha bərpa olunmuş və Mədəniyyət Nazirliyinin 518 nömrəli inventarı kimi dövlət tərəfindən qorunmaqdadır.

**Feyruz BAĞIROV,**
**Naxçıvan MR Mədəniyyət Nazirliyi**
**Mədəniyyət üzrə Elmi-Metodiki**
**Mərkəzin aparıcı metodisti**